# Xalça

## KREATİVLİYİ SEVİR

Ülviyyə Məmmədova

"Azər-İlmə"də təbii rəngli qoyun yunundan hazırlanmış iplərlə "Çələbi" xalçası toxunmuşdur.

*Xalça tükənməz ideya mənbəyidir. Ona yaradıcı münasibət göstərdikcə, o səni daha çox özünə bağlayır, rəngləri, naxışları ilə göz oxşayır, ovsunlayır, düşündürür, sevindirir... Formaca sadə, mahiyyətcə mürəkkəb olan xalçada nə kimi yeniliklər etmək olar? Proses sadə və ənənəvidir: qoyun yunu qırxılır, daranır, əyirilir, boyanır, çeşni, ölçü müəyyənləşir, arişlər hanada çəkilir.*





Daim yaradıcılıq axtarışlarında olan "Azər-İlmə" bu prosesin yalnız bir mərhələsini "ixtisara salmaq"la maraqlı bir xalça toxuyub. Ümumiyyətlə, burada ibtidai xalçaçılıq işinin yaşadılması və davam etdirilməsi bir ənənə halını almışdır. Əl əməyindən istifadə "Azər-İlmə"nin əsas fəaliyyət prinsipidir. İndiyədək bu müəssisədə təbii mənşəli boyaqlarla boyanmış iplərdən saysız-hesabsız xalçalar toxunmuşdur. Bu yaxınlarda toxunuşu başa çatdırılmış "Çələbi" xalçası isə digərlərindən seçilir. Xalçaya ilk baxışdan bu fərqi hiss etmək mümkün deyil. O, həm texniki, həm də bədii cəhətdən mükəmməldir. Onun fərqli cəhəti iplərinin heç bir boyaq maddəsi ilə boyanmamasındadır. Uzunluğu 600 sm, eni 400 sm olan bu "Çələbi"nin ipləri Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarında, kəndlərində bəslənən qoyunların təbii rəngli yunundan hazırlanmışdır. Mütəxəssislər tərəfindən xüsisi şəkildə seçilən yun "Azər-İlmə"nin toxucularının barmaqlarının sehri ilə "Çələbi" xalçasına çevrilmişdir. Əslində bu, xalçanın yaranışına, bünövrəsinə, hələ rəngin, çaların dərk edilmədiyi, xalçanın insanın yalnız fiziki ehtiyaclarını ödədiyi dövrlərə bir səyahətdir.

İdeya müəllifi professor Vidadi Muradovun dediklərindən: "Xalçaya yaradıcı münasibət mütləqdir. O, axtarışları sevir. Ona ənənələrə sadiq qalmaqla, lakin formaca, məzmunca, keyfiyyətcə dəyişikliklər edəndə, xalça incimir, əksinə daha da gözəlləşir, müqəddəsləşir. Elə bu səbəbdən də Azərbaycan xalçası həm tarixi, həm də müasirdir. O, öz tarixiliyini qoruyaraq dəblə ayaqlaşır. Azərbaycan xalçası çox "alicənabdır". Əsrlər boyu onun ornament, naxış, kompozisiya sistemi memarlıq, rəssamlıq, xəttatlıq, keramika kimi sənət sahələrinin bəzəyinə çevrilib.



Xalçanın sabahı onun dünəni ilə bağlıdır. Təbii rəngli bu "Çələbi" "Azər-İlmə"nin tədqiqatlarından yaranan ideyalar əsasında ərsəyə gəlmişdir. Azərbaycanın ən müxtəlif bölgələrində tarixən xalçaçılıq üçün yararlı olan qoyun cinslərinin öyrənilməsi, onların keyfiyyət və kəmiyyət baxımından müqayisəsi, yunun xovlu və xovsuz xalça növləri üçün yararlılığının müəyyənləşdirilməsi bir çox maraqlı nəticələrə gətirib çıxarmışdır. Biz öz axtarışlarımızın məhsulu kimi, ilk növbədə, bu xalçanı toxumağı qərara aldıq. Bu bir sınaq, imtahan oldu: həm toxucular, həm xalçaçı-rəssam üçün. Rəng hər xalçada məsuliyyəti öz üzərinə götürə bilir. Bəzən texniki cəhətdən o qədər də mükəmməl olmayan bir xalçanın qüsurlarını gözəl rəng həlli gizlədə bilir. Tamaşaçı o qüsurları görmür, onu rəng seçimi daha çox cəlb edir. Rəng aldadıcıdır. Bu, bü-



Xalça. "Çələbi". Yun. Xovlu. 600x400. 2014-cü il. Qarabağ qrupu. "Azər-İlmə" istehsalı.



tün sənət sahələri üçün xarakterikdir. "Azər-İlmə" yunun öz təbii rəngi ilə "Çələbi"yə yeni, təbii bir nəfəs, həyat verdi. "Çələbi"də öz yaradıcılıq imkanlarımızı bir daha sınağa çəkmiş olduq. Kompozisiya Qarabağdan, yun ip Naxçıvandan, emalçılar Şamaxıdan, toxucular isə Azərbaycanın ən müxtəlif bölgələrindən... Bu "Çələbi" Azərbaycanın bütövlüyünün, tarixən ayrı-ayrı rayonlarının mövcud olmuş ticari-iqtisadi əlaqələrinin təcəssümüdür".

Xalçaçı-rəssam Neva Ağaliyevanın da təbii rəngli "Çələbi" haqqında dedikləri maraqlıdır: "Bu, xalçaçılıq təcrübəsində qədim və eyni zamanda yeni hadisədir. Boyanmamış ip xalçaçılığın ilkin mərhələsi üçün xarakterik olsa da, indi boyanmamış ipdən dolğun kompozisiya yaratmaq artıq yeni bir faktdır. Bu mənada məsuliyyətimiz böyük idi. "Çələbi" Azərbaycanın Qarabağ xalçaçılıq məktəbinə aid, tarixi köklərə malik olan bir kompozisiyadır. Düzünü deyim ki, təbii rəngli iplərlə "Çələbi" kompozisiyasını yaratmaq kifayət qədər böyük ustalıq və səbr, düzgün seçim tələb edir. Azərbaycan xalçaçılıq tarixində toxunmuş bir-birindən gözəl "Çələbi"lərin gözəl və mükəmməl üslubunu pozmamağa, tarixi ənənələrimizə xələl gətirməməyə çalışdıq. Xalçaçı bir xalçada reallaşdıra bilmədiyi fantaziyalarını, imkanlarını digərinə saxlayır. Və xalçadan-xalçaya da peşəkarlaşır, özünü kəşf edə bilir. Təbii rəngli "Çələbi"nin toxunmasında "Azər-İlmə"nin respublikamızın ayrı-ayrı bölgələrini təmsil edən təcrübəli xalçaçıları – Gülsabah Əhmədova, Xəyalə Əliyeva, Aybəniz Mirzəyeva, Roza Əliyeva, Lamiyə Xalıqova cəlb olunmuşdular. Xalça 6 rəngli (qara, qəhvəyi, şəkəri, boz və s.) qoyun yunundan alınmış iplərdən toxunmuşdur. Burada maraqlı cəhətlərdən biri də xalçanın kənar haşiyələri ilə bağlıdır. Kənar haşiyələr Qarabağ xalçaçılığından götürülsə də, "Çələbi" üçün qeyri-ənənəvidir. Yəni bu da bir dəyişiklik, üslub fərqidir. Nəticə göz qabağındadır. İdeyalardan yaranan "Çələbi" ümidlərimizi, gözləntilərimizi doğruldub".

Təbii rəngli "Çələbi" möhtəşəmdir. Gözəllik mükəmməllikdir. Ən böyük rəngkar elə təbiətin özüdür. Bir də o rəngkarın əsərləri peşəkar toxucu barmaqları ilə üzləşərsə... hələ neçə-neçə "Çələbi"lər yaranacaq! "Azər-İlmə" gələcəkdə də bu layihənin davamı kimi təbii rəngli yunlardan Azərbaycanın digər xalçaçılıq məktəblərinə aid xalça nümunələrini toxumaq niyyətindədir. "Çələbi"dən başlanan yolun uğurlu olacağına ümid edirik!

